

# TƏHSİL MİLLƏT ÜÇÜN PRİORİTET OLMALIDIR

### Rəhbər təhsil işçilərinin respublika konfransı

2007-ci il sentyabrın 5-də Musiqili Komediya Teatrında rəhbər təhsil işçilərinin ənənəvi respublika konfransı keçirilmişdir.

Konfransda Baş nazirin müavini Elçin Əfəndiyev, Prezidentin İcra Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə, Milli Məclisin deputatları, müxtəlif nazirliklərin nümayəndələri, Təhsil Nazirliyinin idarə rəisləri və şöbə müdirləri, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq qurumların təmsilçiləri, ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri, rayon və şəhər təhsil şöbələrinin müdirləri iştirak edirdilər.

İştirakçılar əvvəlcə teatrın foyesində Azərbaycan təhsilinin nailiyyətlərindən bəhs edən sərgiyə baxmışlar.

Məktəblilərin ifasında Azərbaycan Respublikasının Dövlət himni səslənmişdir.

Konfransın aparıcıları Uşaq parlamentinin üzvləri idi.

### "2006-2007-ci dərs ilinin yekunları və qarşıda duran vəzifələr"

Konfransda təhsil naziri Misir Mərdanov "2006-2007-ci dərs ilinin yekunları və qarşıda duran vəzifələr" mövzusunda məruzə etmişdir.

Nazir ölkəmizdə təhsilin inkişafı üçün hərtərəfli şərait yaradıldığını deyərək vurğulamışdır ki, son 4 il ərzində respublikanın təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərinin baş verməsi, inkişafyönümlü proqram və layihələrin həyata keçirilməsi dövlətimizin başçısının təhsilə müntəzəm diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Prezidentin elə bu günlər "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" sərəncam imzalaması bu qayğının bariz nümunəsidir. Məktəbin və müəllimin statusunun yüksəldilməsinə yönəlmiş həmin sərəncamda hər il ölkə üzrə ən yaxşı məktəblərin və müəllimlərin müsabiqə yolu ilə müəyyənləşdirilməsi və onlara böyük məbləğdə mükafatların verilməsi nəzərdə tutulmuşdur. Bu yüksək diqqətə görə Prezidentə bütün təhsil işçilərinin dərin minnətdarlığını bildirən nazir xatırlatmışdır ki, stimullaşdırma ilə əlaqədar Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası da nazirliklə birgə tədbirlər həyata keçirəcəkdir.

M.Mərdanov demişdir ki, respublikamızın maliyyə imkanlarının ilbəil artması nəticəsində təhsilə ayrılan vəsait hər il davamlı olaraq artır. 2007-ci ildə təhsil büdcəsi ötən ilə nisbətən 52 faiz, investisiya xərcləri 2 dəfə artmışdır. Ölkə büdcəsində çəkisinə görə təhsil ikinci yerdədir. Dövlət büdcəsindən təhsil sektoruna ayırmaların ilbəil artırılmasında əsas məqsəd, bəzilərinin düşündüyü kimi, yalnız hamının təhsil almasını təmin etmək deyil, bu vəsaitdən daha səmərəli istifadə etməklə təhsilin keyfiyyətində müvafiq nəticələrə nail olmaqdır.

Məktəbəqədər təhsildən bəhs edən natiq Prezidentin cari ilin aprelində imzaladığı və 2007-2010-cu illəri əhatə edən "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı"nı, sənəddə dünya təcrübəsinə uyğun olaraq, 5 yaşlı uşaqların icbari məktəbəqədər təhsilə cəlb olunmasının nəzərdə tutulduğunu xatırlatmışdır. O demişdir ki, bir çox valideynlər övladlarını evdə tərbiyə etməyə üstünlük verirlər ki, bu da uşaqları zəruri tərbiyə, təlim və inkişafyönümlü tədbirlərdən təcrid edir. Hesab edirik ki, yeni dərs ilində "Heç bir uşağı nəzərdən qaçırmayaq" adlı təhsil hərəkatına başlanması, valideynlərin həmin prosesdə fəal iştirakının təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməlidir.

Orta təhsilin vəziyyətindən danışan nazir məktəb tikintisini xüsusi vurğulayaraq demişdir ki, son dörd ildə inşa olunmuş yeni məktəblərin və əlavə korpusların sayı 1200-ə çatacaqdır. Yalnız cari ilin sonunadək dövlət büdcəsindən ayrılan vəsait hesabına 200 yeni məktəbin və əlavə korpusların inşası, 50 məktəbin əsaslı təmiri başa çatdırılacaqdır, Bakı şəhərinin 250 məktəbinin istilik sistemi bərpa ediləcəkdir. Yeni tikilən, əsaslı təmir edilən məktəblərdən əlavə, son 3 ildə daha 325 məktəb müasir avadanlıqla təchiz olunmuşdur. Bütün bunlar Prezidentimizin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" tələbinin yerinə yetirilməsinin real nəticələridir.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi və təhsilin inkişafı sahəsində Heydər Əliyev Fondunun xidmətləri də xüsusi vurğulanmışdır.

Bununla belə, bildirilmişdir ki, hazırda 600 məktəb üçün yeni binanın, 700 məktəb üçün əlavə korpusların tikintisinə, 1500 məktəbin əsaslı təmirinə, məktəblərin 80 faizinin istilik sisteminin yenidən qurulmasına, 60

faizdən çoxunun müasir avadanlıq, laboratoriya və əyani tədris vəsaitləri ilə təminatına ciddi ehtiyac vardır. Həmin problemlərin həlli üçün ölkə Prezidentinin tapşırığına əsasən müvafiq proqramlar hazırlanmışdır.

Məruzədə "Ümumtəhsil məktəblərinin İKT ilə təminatı Proqramı"nın yerinə yetirilməsi vəziyyətindən, hökumət tərəfindən təsdiq edilmiş "Ümumi təhsilin konsepsiyası (Milli Kurrikulum)"dan, qiymətləndirmə sistemindəki yeniliklərdən, təhsil sənədinin hamıya deyil, yalnız müvafiq standartlar səviyyəsində bilik və bacarıqlara yiyələnmiş şagirdlərə verilməsinin zəruriliyindən, müəllim hazırlığından və sair məsələlərdən də bəhs olunmuşdur.

**Təhsil Nazirliyinin adı dəyişdiriləcəkmi?**

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri, Dövlət İqtisad Universitetinin rektoru Şəmsəddin Hacıyev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev ali təhsilin inkişaf istiqamətləri, bu sahədə cəmiyyəti düşündürən problemlərin həlli yolları, təhsilimizin qanunvericilik bazasının yaradılması sahəsində görüləcək işlər, muxtar respublikada təhsil sahəsində əldə edilmiş uğurlar haqqında danışmışlar.

Abel Məhərrəmov demişdir ki, orta məktəb şagirdləri üçün həvəsləndirmə vasitələri (qızıl medal, ali məktəbə müsabiqədənkənar qəbul) bərpa olunmalı, təhsilin bir pilləsindən digərinə keçərkən gəncin əvvəlki uğurları nəzərə alınmalıdır. O, nazirliyin Təhsil və Elm Nazirliyi adlandırılmasını təklif etmişdir.

Qeyd edək ki, bu təklifi ilk dəfə 2007-ci ildə iki dəfə - Madriddə keçirilən UNDP - qlobal forumunda və "525-ci qəzet"in 2, 3, 6, 7 fevral 2007-ci il tarixli 19, 20, 21, 22-ci saylarında dərc olunan "Təhsil və elmdə inkişaf: hədəfi aydın görməli və manеələri uğurla dəf etməli" adlı məqaləsində Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı əsaslandırmışdır.

Rektor çıxışında gələn il prezident seçkiləri keçiriləcəyini də xatırladaraq demişdir ki, inanıram, bütün Azərbaycan xalqı, iqtidar da, müxalifət də prezidentliyi dövründə xalqın rifahı və dövlətçilik naminə gördüyü tarixi xidmətlərini nəzərə alaraq, bu seçkilərə məhz İlham Əliyevin namizədliyi ilə gedəcəklər.

Şəmsəddin Hacıyev Milli Məclisdə müzakirəyə çıxarılacaq "Təhsil haqqında" yeni qanun layihəsində üçpilləli ali təhsil formasının (bakalavr, magistratura, doktorantura) təklif olunduğunu bildirmişdir.

Respublika Təhsil Şurasının sədri Əjdər Ağayev təhsil sahəsində müasir dünya təcrübəsinə uyğun ictimai idarəetmənin gücləndirilməsi, orta məktəbdə xarici dilin öyrədilməsi, Dünya Bankının Azərbaycandakı ofisinin meneceri Qreqori Yedjeyçak ölkəmizdə aparılan təhsil islahatlarının gedişi vəziyyəti, YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin təhsil proqramları üzrə əlaqələndiricisi xanım Cilian Vikoksa təmsil etdiyi qurumla Təhsil Nazirliyinin əməkdaşlığının nəticələri və perspektivləri barədə mülahizələrini bölüşmüşlər.

**Ölkəmizdə 4525 məktəb fəaliyyət göstərir**

Konfransda çıxış edən Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov demişdir ki, burada sadalanan uğurlar, beynəlxalq qurumların təmsilçilərinin dedikləri Azərbaycan təhsilinin düzgün yolda olduğunu sübut edir. Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmizdə təhsilin strategiyası düzgün müəyyənləşdirilibdir. Bu yolda mən sizə uğurlar arzulayıram. Çıxışlarda da qeyd olundu, mən də məktəb tikintisinə toxunmaq istəyirəm. Bu gün ölkəmizdə 4525 məktəb fəaliyyət göstərir. Onların 2 minə qədəri, yəni, mövcud məktəblərin dörddəbiri ya yenidən qurulub, ya da təzə tikilibdir. Başqa sözlə, Prezidentin təsdiq etdiyi proqram qarşımıza vəzifə qoymuşdur ki, ümumiyyətlə, Azərbaycanda köhnə məktəb olmamalıdır. Hər bir şagird yeni məktəbdə təhsil almalıdır. Ən müasir, standartlara uyğun məktəbdə. Bu baxımdan, Heydər Əliyev Fondunun, onun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı hörmətli Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Fondun irəli sürdüyü "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində ölkənin, demək olar, bütün rayonlarında müasir məktəblər tikilmişdir.

Ziyafət Əsgərov, təəssüflə demişdir ki, yerlərdə təhsil sistemində gedən islahatlardan az məlumatlıdırlar. Məsələn, burada təhsilin inkişafı ilə bağlı həyata keçirilən 20-dək proqramın adı çəkildi, onlar geniş şəkildə reallaşdırılır, amma yerlərdə bunlar zəif təbliğ olunur. Ümid edirəm ki, bu məsələ nəzərə alınacaqdır.

Parlament sədrinin birinci müavini Prezidentin imzaladığı "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" sərəncamı xatırladaraq bildirmişdir ki, təhsilin inkişaf etdirilməsində bu sənəd də mühüm amil olacaqdır. Bu, ondan xəbər verir ki, Azərbaycanın iqtisadi imkanlarının artması təhsil sahəsində həm də həvəsləndirmə tədbirlərin görülməsinə imkan verir.

Ziyafət Əsgərov konfransın aparılması formasını da bəyəndiyini bildirərək demişdir ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir.

***

Xatırladaq ki, konfrans başlanmazdan əvvəl səhnənin hər iki tərəfində iştirakçıların yazılı təklifləri üçün qutular qoyulmuşdu. Sonda məlumat verilmişdir ki, təkliflər nazirlikdə ümumiləşdiriləcək və qurumun növbəti illər üçün fəaliyyət planında nəzərə alınacaqdır.

Konfransda müvafiq qətnamə, iştirakçılar adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul edilmişdir.

**AzərTAc**